# Ermənistan ordusunun Mingəçevirə, Beyləqana, Bərdəyə vurduğu ziyanın qiymətləndirilməsi işləri yekunlaşmaq üzrədir

Məlum olduğu kimi, noyabrın 6-da Prezident İlham Əliyev "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyası yaradılıb.

Müxtəlif dövlət qurumlarının əməkdaşları və mütəxəssislərdən ibarət işçi qruplar vəziyyətlə yerində tanış olmaq və qiymətləndirmə işlərinin aparılması məqsədilə Ermənistan silahlı qüvvələrinin zərər vurduğu şəhər və rayonlara ezam olunublar.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, işçi qrupu Mingəçevir şəhərində də qiymətləndirmə işlərinə başlayıb.

Maliyyə nazirinin müşaviri, Mingəçevir şəhəri üzrə işçi qrupun rəhbəri Rafiq Hüseynov AZƏRTAC-a bildirib ki, indiyədək 34 akt tərtib edilib. Bir ev və bir yarımçıq tikili tamamilə yararsız hala düşüb.

"Hazırda işlərimiz yekunlaşmaq üzrədir. Dəymiş ziyanın aradan qaldırılması üçün tələb olunan maliyyə vəsaitinin həcminə dair təkliflər dekabrın 10-dək dövlət komissiyasına təqdim ediləcək", - deyə R.Hüseynov əlavə edib.

* * *

Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində Beyləqanda evlərə, sosial obyektlərə və təsərrüfatlara dəyən ziyanın qiymətləndirilməsi istiqamətində iş aparılır, bölgəyə ezam olunan işçi qrup tərəfindən dağıntı yerlərinə baxış keçirilir.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, Ermənistanın hərbi təcavüzü nəticəsində cəbhədən kilometrlərlə uzaqda olmasına baxmayaraq, Beyləqanda da dağıntılar baş verib. Erməni faşistləri tərəfindən rayon ərazisi ağır artilleriyadan atəşə tutulub. Nəticədə 2 dinc sakin həlak olub, sosial obyektlər, evlər dağılıb, infrastruktur sıradan çıxıb.

Rayon ərazisində qeydə alınan dağıntıların ilkin qiymətləndirilməsi üçün hazırda işçi qrup tərəfindən əraziyə baxış keçirilir. İşçi qrupun rəhbəri Samir Şahhüseynli bildirib ki, 4 gün ərzində baxış keçirilən zaman ilkin məlumata görə, 60-dan çox evə, sosial obyektə və infrastruktura ziyan dəydiyi müəyyənləşib. Belə ki, çoxmənzilli binada yerləşən 2 ev, 44 fərdi yaşayış evi dağıdılıb, 11 sahibkarlıq subyektinə ziyan dəyib. Bir uşaq bağçası, istirahət parkı və vergilər idarəsinin binası zərər görüb. Bundan başqa, bir yük maşını və minik avtomobili yararsız hala düşüb.

İşçi qrup tərəfindən rayonda digər ərazilərə baxış keçirilməsi davam etdirilir.

* * *

Sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın yaşayış məntəqələrinin mərmi və raket atəşinə tutulması nəticəsində mülki əhaliyə, evlərə, mənzillərə, dövlət əmlakına, infrastruktur obyektlərinə xeyli ziyan dəyib.

AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, Bərdə rayonunun sakinləri də erməni vandalizmindən əziyyət çəkib. Hazırda Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə rayonunun raketlərdən atəşə tutulması nəticəsində mülki əhaliyə, evlərə, mənzillərə, dövlət əmlakına, infrastruktur obyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi işləri davam etdirilir.

Bərdə rayonu üzrə işçi qrupun rəhbəri, İqtisadiyyat Nazirliyinin şöbə müdiri Elçin İbrahimov müxbirimizə bildirib ki, ilkin məlumata görə, Bərdə şəhərində və rayonun altı kəndində 160 subyektə ziyan dəyib. Artıq Bərdə rayonunun 6 kəndində dəymiş ziyan qeydiyyata alınıb, vətəndaşların iştirakı ilə aktlar tərtib edilib.

Qeyd edək ki, Prezident İlham Əliyev noyabrın 6-da "2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən, Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə Dövlət Komissiyası yaradılıb. Müxtəlif dövlət qurumlarının əməkdaşları və mütəxəssislərdən ibarət işçi qruplar vəziyyətlə yerində tanış olmaq və qiymətləndirmə işlərinin aparılması məqsədilə Ermənistan silahlı qüvvələrinin zərər vurduğu şəhər və rayonlara ezam olunublar.

Azərbaycan.- 2020.-15 noyabr.- S.5.